

## *AKJOL DORANBEKOĞLU*
(АКЖОЛ ДОРАНБЕК УУЛУ) –

*1994-cü ildə Bişkek şəhərində doğulub.*
*2016-cı ildə Qırğız Respublikası Prezidenti yanında*
*İdarəçilik Akademiyasını bitirib.*
*Uluslararası "Nur borbor" Yaradıcı Gənclər*
*Akademiyasının üzvüdür.*
*"Gözləntinin sonu"("Kütüünün ayağı") adlı*
*şeir kitabı gün üzü görüb.*
*2018-ci ildə DGTYB-nin xətti ilə Azərbaycanda*
*keçirilən ədəbi konfransda*
*qırğız gənc yazarlarını təmsil edib.*

## *BİR ƏSƏR*

Xəyalən şeir yazıram –
nə tükənməz, nə bitməz.
Duyğu daşır şeirdən,
yazsam da, kağız yetməz.
O an mənimkidir: ötən günləri
xəyalı göylərdə keçirmişəm mən... –
Peşmanlığım, şirin-acım, gözləntim,
Doğuluşum, dünyaya ilk gəlişim
və ilk dəfə ana südü əmdiyim...
Anamın ilk laylasını çalması,
qanımın bir ilkbaharda coşması...
İlk günümün haralardan başlaması, bitməsi...
Nələr yazıb,
                    əlimi nələrdən geri çəkdim,
bəs necə oldu mənim bu günlərə gəlməyim?
Kimlə azdım, kimlə mən? Kimlər dərdi gülümü?
Kimə sərhəd olmuşam? Kimə çatıb sevgimdən?
(Kimlər mənə, mən kimlərə yetmədim?..
Hələ neçə sual var, çoxusunu vermədim.)

## *HAMISINI YAZDIM*

Ömrü varaq-varaq bir də çevirdim,
Mənim varlıq səbəbimdir əsərim;
Mələklərin kitabına baxaraq,
Köçürdüyüm sözlər harda bitəcək?
Və sonra mən hansı yolla gedəcəm?
Öz ömrümü özüm sınaq edəcəm.
Kimdə arzu-dilək dolub-daşacaq?
Kimlər harda, necə dəyər verəcək?
Bilməm, Tanrı qarşısında nə cürə
Yamanlıqlar yaxşılığı yenəcək?
Yaşamağın mənası nə? – düşünüb,
Fikirləşib, necə cavab verəcəm..?
Qiyamətdə – hesab-kitab günündə
Tərəzimin hansı gözü əyəcək?
Sirri-pünhan cəhənnəmin, cənnətin
Hansı yolu məni alıb gedəcək..?
İstərdim ki, bu şeir çox uzansın,
Hər gələcək günə yeni iz salsın.
Və həyatın son günləri gəlincə
Şeirlərim də qələbə çalacaq..!

# *DİLDƏKİ CAVAB*

*"...Başqasını sevirdinsə,*
*Niyə mənlə evləndin?!"*

Sən mənim ömrümün qısqanc gözəli,
Dünya mənə səndən ibarət gəlir...
Etiraf edirəm, səndən öncə də,
Özgə gözəllərə bağlıydı könül...

Biri sənin kimi xəyalpərvərdi,
Biri şirniyyatı yaman sevərdi.
Biri süzgün gözlə süzüb, baxardı
Və bir az üzülsə tez ağlayardı...
Yaxşı yadımdadır,
birinin boyu
165 santimetr olardı.
Bircə boyu deyil, saçı, qaşı da,
mənim arzularmı tora salardı...

*Biri mənə çox bağlıydı,*
*Biri mənlə var olurdu.*
*Şeirlərmi oxuyurdu,*
*Sözlərimə yar olurdu...*

Özünü tapmışdı birisi məndə,
O biri mənimlə bütövləşirdi.
Bunların hamısı bir canda olan
birini tapmaqsa çətinləşirdi...

- Sonra?
- Sonra da sən çıxdın qarşıma mənim,
Hər kəsi, hər kəsi əvəz eylədin.
Bütün gözəlliklər bir cana dolub,
ən kamil şəkildə qəlbimə hopdu...
Sən, sən, yaraşırsan mənə,
yalnız sən,
yaşama səbəbim, könül xoşluğum.

## *NOSTALGİYA*

Söz verdik bir ömür birgə olmağa,
o anda ancaq bir məqsəd güdərdik.
Bir dəfə yaşamaq şansımız olan,
həyatda ölümlə dostluq edərdik.

Dərə gül-çiçəklik, ətraf quraqlıq,
Xatirələr isə qara boyandı...
Tale qopartdığı yarpaqlar ilə
Keçmiş tənhalıqlar üzə dayandı.

Məzarlığı dalda bilib, görüşdük,
Bilmədik bu adət uğur gətirməz.
Tapdayıb yol saldıq güllük içindən,
Sən demə, bayquşluq çiçək bitirməz.
...

(Çevirən: **Gülnar SƏMA)**